

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 238 (21.139)

13 dekabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 11 il keçir. Azərbaycan dövlətçiliyinin xilaskarı, Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.



# Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

## Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti

**Ulu öndər Heydər ƏLİYEV:** ***1995-ci ilin əvvəlindən ölkədə bazar iqtisadiyyatına keçid məqsədilə islahatların aparılması kursu müəyyənləşdirildi və ardıcıl olaraq məqsədyönlü islahatlar proqramı həyata keçirilməyə başlandı. Keçən dövr ərzində Azərbaycan ən radikal iqtisadi islahatlar aparmağa qadir olduğunu sübut etdi.***



*(Əvvəli qəzetin ötən sayında)*

Bu gün Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir. Bu, Azərbaycanın xarici siyasət sahəsində apardığı gərgin və məqsədyönlü işin parlaq nəticəsidir.

Azərbaycan diplomatiyasının son illərdə dövlətimizin müstəqilliyi, təhlükəsizliyi və ərazi bütövlüyünün təmin olunmasında, habelə bütün ölkələrlə hərtərəfli, bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr qurmaq sahəsində qazandığı böyük uğurlar Azərbaycanın xarici siyasət kursunun düzgünlüyünə, milli maraqları dünyada gedən proseslərlə faydalı şəkildə uzlaşdırmağa qadir olduğuna dəlalət edir.

Xarici siyasət sahəsində köhnə iqtidardan miras qalmış ən mürəkkəb və ağrılı problem Dağlıq Qarabağla bağlı Ermənistan-Azərbaycan münaqişəsidir. Azərbaycanda olan daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə, müxtəlif qüvvələrin törətdiyi təxribat əməlləri, Ermənistan silahlı qüvvələrinə xaricdən edilən xüsusi yardım Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsinə imkan yaratdı. Bu işğal öncə Dağlıq Qarabağın ərazisini, sonra onun ətrafında olan bir neçə rayonun ərazisini əhatə etdi. İndi Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan zorla çıxarılmış bir milyon soydaşımız çadırlarda ağır vəziyyətdə yaşayır.

1994-cü ilin may ayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəs haqqında saziş imzalandı. Hələ tam sülh əldə edilməyibsə də, Azərbaycan altı il yarımdan çoxdur ki, müharibəsiz, dinc şəraitdə yaşayır, şəhid vermir, qan tökülmür. Azərbaycan dövləti bu müddətdə dünyanın bütün beynəlxalq təşkilatlarının, təsirə malik olan böyük dövlətlərin imkanlarından istifadə etməyə çalışmış və bu işdə mühüm uğurlar qazanmışdır. Bu müddət ərzində bir neçə dəfə məsələnin həlli yolunda real fürsətlər yaranmışdır. Lakin Ermənistanın daim pozucu mövqe tutması, Azərbaycanın torpaqlarını işğal etdiyinə görə özünü üstün hesab etməsi, beynəlxalq təşkilatların, Minsk qrupunun, onun həmsədrləri olan Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın Ermənistana lazımi təsir göstərə bilməməsi bu problemin indiyə qədər həll olunmasına imkan verməmişdir. Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa danışıqları da hələ konkret bir nəticə verməmişdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həll olunmasını mümkün hesab edir və bundan sonra da bu istiqamətdə səylərini davam etdirmək əzmindədir. Azərbaycan dövləti Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi, səmərəliliyinin artırılması üçün əlindən gələni etməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentlərinin birbaşa danışıqlarının bundan sonra da davam etdirilməsini zəruri hesab edir. Bu hər iki istiqamətdə göstərilən səylər nəticəsində müəyyən kompromislər yolu ilə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması və sülh əldə olunması gerçəkləşə bilər.

Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır. Keçmiş SSRİ tərkibində sərt planlaşdırılmış təsərrüfat sistemində 70 ildən çox müddət ərzində fəaliyyət göstərmiş Azərbaycan Respublikası 9 ildir ki, yeni iqtisadi şəraitə qədəm qoymuşdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra keçən müddət ərzində iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil iqtisadi siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin formalaşdırılması, bazar iqtisadiyyatına keçid və dünya təsərrüfat sisteminə inteqrasiya təşkil etmişdir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü, ictimai-siyasi sabitliyin vaxtaşırı pozulması, ölkədə rəhbərliyin tez-tez dəyişməsi 90-cı illərin əvvəllərindən etibarən iqtisadiyyatın əksər sahələrində istehsalın tənəzzülünə və bu prosesin getdikcə dərinləşərək xroniki səciyyə almasına səbəb olmuşdur. 1991-1994-cü illərdə ölkədə istehsal müəssisələrinin böyük əksəriyyəti dayanmış və ya öz gücünün 15-20 faizi səviyyəsində işləmişdir. Həmin illərdə sənayedə illik geriləmə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşunda 40 faizə çatmışdı. İstehlak mallarının qiymətləri ildə 14-18 dəfə artaraq iqtisadi və sosial sahələrdə dağıdıcı rol oynamışdır. Respublikanın iqtisadiyyatı, demək olar ki, tamamilə dağılmış, xalqın rifah halı olduqca aşağı düşmüşdü. Lakin Azərbaycanın əlverişli coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaradılmış maddi fondları, ümumiyyətlə, böyük sosial-iqtisadi, elmi-texniki potensialı ölkəni bu ağır böhrandan çıxarmağa əsas verirdi. Digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində məqsədyönlü iş aparılmalı idi.

Yalnız 1994-1995-ci illərdə ölkədə siyasi vəziyyət normal məcraya salındıqdan və ictimai-siyasi sabitlik təmin edildikdən sonra çoxsaylı sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl iş aparılması mümkün oldu. 1995-ci ilin əvvəlindən ölkədə bazar iqtisadiyyatına keçid məqsədilə islahatların aparılması kursu müəyyənləşdirildi və ardıcıl olaraq məqsədyönlü islahatlar proqramı həyata keçirilməyə başlandı. Keçən dövr ərzində Azərbaycan ən radikal iqtisadi islahatlar aparmağa qadir olduğunu sübut etdi.

Ötən dövr ərzində ölkədə demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda böyük iş aparılmış, 900-ə yaxın qanun qəbul edilmişdir. Onların içərisində torpaq islahatı haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tutur.

İstehsalda yaranmış geriləmə hallarının qarşısı bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində alınmış, ölkədə makroiqtisadi sabitlik təmin olunmuşdur. Ümumi Daxili Məhsulun artımı 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10 faiz, 1999-cu ildə isə 7,4 faiz olmuşdur. Bu da Müstəqil Dövlətlər Birliyi məkanında ən yüksək göstəricidir.

Həyata keçirilən tədbirlər nəticəsində sənaye istehsalında da artım meyilləri müşahidə edilməkdədir. 1997-ci ildə sənaye istehsalının həcmi cəmi 0,3 faiz artmışdısa, 1998-ci ildə artım 2,2 faiz, 1999-cu ildə 3,6 faiz, 2000-ci ildə isə 6,9 faiz olmuşdur.

Artıq demək olar ki, sənayenin bütün sahələrində, o cümlədən neft və qaz, neft kimyası, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş vardır və bu sahələrdə məhsul istehsalı keçən ilin müvafiq dövrünə nisbətən xeyli çoxalmışdır.

Ölkənin iqtisadi və sosial inkişafını xarakterizə edən makroiqtisadi göstəricilər 2000-ci ilin əvvəlindən xeyli yaxşılaşmışdır. Ümumi Daxili Məhsul istehsalı keçən illə müqayisədə 11,3 faiz və ya 21 trilyon manatdan çox olmuşdur. Ümumi Daxili Məhsulun strukturunda real istehsal sahələrinin xüsusi çəkisi 1999-cu ilə nisbətən 46,3 faizdən 48,7 faizə çatmış, xidmət sahələrinin payı isə 47,5 faizdən 44,6 faizə enmişdir. Adambaşına 2,5 milyon manatlıq (562,3 dollar), yaxud keçən ildəkindən 10,4 faiz çox belə məhsul istehsal olunmuşdur.

Ümumi Daxili Məhsulun tərkibində sənaye məhsulu istehsalının çəkisi 25,6 faiz təşkil etmişdir. İstehsalın həcmi yanacaq sənayesi müəssisələrində 5,3 faiz, elektroenergetikada 3,2 faiz, yeyinti sənayesində 2,1 faiz, kimya və neft kimyası müəssisələrində 34,4 faiz, metallurgiya sənayesində 2,5 dəfə, maşınqayırma müəssisələrində 78,2 faiz, meşə, ağac emalı və sellüloz-kağız sənayesində 10,5 faiz, tikinti materialları sənayesində 21,3 faiz, yüngül sənayedə 47,7 faiz, unüyütmə-yarma müəssisələrində 52,5 faiz çoxalmışdır. Ötən illə müqayisədə sənayenin dövlət bölməsində məhsul istehsalı 2,5 faiz, qeyri-dövlət bölməsində isə 12,5 faiz artmış, ümumi məhsulda onun xüsusi çəkisi 43,9 faizə çatmışdır.

Məlumdur ki, kənd əhalisinin rifahı, kəndin sosial-iqtisadi inkişafı aqrar islahatların gedişindən asılıdır. Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratmışdır. 1995-ci ildən başlayaraq 1300-dən çox kolxoz və sovxoz ləğv olunmuş və onların bazasında 35 minədək kəndli (fermer) təsərrüfatı yaradılmışdır. Demək olar ki, aqrar islahatların birinci mərhələsi başa çatmışdır. Bunun nəticəsində kənd təsərrüfatı istehsalında 1998-ci ildə 4 faiz artım əldə edilmişdirsə, 1999-cu ildə artım 7,1 faiz olmuşdur. Xüsusilə 2000-ci il kənd təsərrüfatı üçün çox uğurlu olmuşdur.

Kənd təsərrüfatında bitkiçilik məhsullarının yığımı, demək olar ki, başa çatmışdır. Dekabrın 1-nə kimi tarlalardan qarğıdalı ilə birlikdə 1538,8 min ton taxıl, 75,6 min ton üzüm, 468,6 min ton kartof, 764,0 min ton tərəvəz, 407,9 min ton meyvə və giləmeyvə, 260,0 min ton bostan məhsulları, 13,8 min ton tütün və 625 ton yaşıl çay yarpağı toplanmışdır. Keçən illə müqayisədə taxıl istehsalı 445,5 min ton və ya 40,7 faiz, kartof 77,3 min ton, tərəvəz 131,5 min ton, meyvə və giləmeyvə 13,5 min ton, bostan məhsulları 57,1 min ton, tütün istehsalı 5,8 min ton və ya 72,7 faiz artmışdır. Cari ildə 90,5 min tona qədər pambıq toplanıb emal müəssisələrinə təhvil verilmişdir. Pambıq, üzüm və yaşıl çay yarpağı istehsalının azalmasına baxmayaraq, bitkiçilik məhsulları istehsalının həcmi keçən ilə nisbətən 18,6 faiz artmışdır.

*(Ardı qəzetin növbəti sayında)*

# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir

Dekabrın 12-də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi Naxçıvan Muxtar Respublikasında böyük ehtiramla yad edilmiş, Naxçıvan şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri, minlərlə insan ulu öndərin abidəsini ziyarət etmişlər.

Ümummilli lider Heydər Əliyevin həyatı və zəngin siyasi fəaliyyəti Vətənə, xalqa xidmətin ən kamil nümunəsidir. Hələ sağlığında xalqımızın qəlbində özünə əbədi abidə ucaldaraq ümummilli lider səviyyəsinə yüksələn dünya şöhrətli siyasətçi tarixin yetirdiyi nadir şəxsiyyətlərdəndir. Ulu öndər həmişə xalqını, Vətənini, millətini düşünmüş, canı qədər sevdiyi Azərbaycanın müstəqilliyi və tərəqqisi yolunda öz xilaskarlıq missiyasını yorulmadan həyata keçirmişdir.

Dahi rəhbərin ***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*** kəlamı Azərbaycan naminə fəaliyyətin ən möhtəşəm şüarı kimi səslənir. Müstəqil Azərbaycanın elə bir sahəsi yoxdur ki, Heydər Əliyev dühası, Heydər Əliyev zəkası oraya nur saçmasın. Ümummilli liderimiz doğma Azərbaycanı yüksəltmiş, onu inkişaf və tərəqqiyə qovuşduraraq bütün dünyada tanıtmışdır. Məhz bu amili yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənir".***



Ümummilli lider Heydər Əliyev təkrarolunmaz dahi şəxsiyyət idi. Azərbaycan tarixinin 1969-1987-ci illərdəki inkişaf və tərəqqi dövrü, 1993-2003-cü illərdə müstəqilliyin möhkəmlənməsi naminə göstərilən siyasi iradə və dövlətçilik təcrübəsi, zəngin irsə malik siyasi məktəb və gələcəyə hesablanmış sosial-iqtisadi islahatlar ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi siyasətçinin Azərbaycana rəhbərlik etdiyi dövrdə yaratdığı sosial-iqtisadi və siyasi baza Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, xalqın vahid ideologiya – Vətən üçün yaşamaq, Vətən üçün fəaliyyət göstərmək fəlsəfəsi ətrafında birləşməsində əsas amil olmuşdur.

***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt insan kimi həyatımı başa çatdıracağam"***, – deyən ümummilli liderin Vətəni və xalqı qarşısında göstərdiyi misilsiz xidmətlər Ona əbədiyaşarlıq haqqı qazandırmışdır. Ulu öndərin həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyasının məntiqi nəticəsidir ki, bu gün ölkəmizdə siyasi müstəqilliyə və iqtisadi sabitliyə nail olunmuş, xalqımız müstəqil, demokratik və hüquqi dövlətin vətəndaşları kimi öz xoşbəxt gələcəyini təmin etmək hüququ qazanmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bu yolla inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır.

Heydər Əliyev ideyaları Naxçıvanı da əsl inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Bu gün muxtariyyətinin 90 illiyini böyük təntənə ilə qeyd edən Naxçıvan özünün əsl inkişaf dövrünü yaşayır. Bu inkişafa ümummilli liderin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Son illər muxtar respublikada quruculuq işləri geniş vüsət almış, dinamik iqtisadi inkişaf əldə olunmuş, infrastruktur yenilənmiş, sosial proqramlar qəbul edilərək icra olunmuş, blokada şəraitində yaşayan muxtar respublikada enerji və ərzaq təhlükəsizliyi təmin olunmuşdur. Qazanılan bu uğurlar isə təbii ki, Heydər Əliyev siyasi xəttinə sədaqətin təntənəsidir.

Şəxsiyyəti tarix yaradır. Ancaq ümummilli lider Heydər Əliyev özü tarix yaradan fenomen bir şəxsiyyət idi. Ulu öndər müasir dünyanın siyasi tarixində öz izini qoymuş, adını əbədi olaraq tarixə həkk etmiş böyük liderdir. O, qeyri-adi istedadı, dərin zəkası və möhtəşəm dövlətçilik məharəti ilə bütün dünyada Azərbaycan adlı sönməz bir məşəl yandırmışdır. Xalqımız bu məşəlin nurunda millət kimi mövcudluğuna, dövlət qurmaq və özünü idarə etmək hüququna sahiblənmişdir. Bu mənada ulu öndərin həyatı və siyasi fəaliyyəti Azərbaycan xalqının mənəvi sərvətidir. Bu sərvəti qorumaq və ondan doğma Vətənimiz Azərbaycanın rifahı naminə yararlanmaq isə hər bir azərbaycanlının borcudur.

Bu gün hər bir azərbaycanlı ulu öndər Heydər Əliyevin ən böyük əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, ümummilli liderə məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir. Çünki ölkəmizin yeganə inkişaf yolu yalnız ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqətdən keçir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir".***

Həmin gün Naxçıvan şəhərində olduğu kimi, muxtar respublikanın bütün rayonlarında da ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında ehtiramla anılmışdır

## *Şərur rayonu*



Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilmiş, ulu öndərimizin bilavasitə rəhbərliyi və daimi nəzarəti ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan vermişdir. Rayon sakinləri ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən tədbirləri bu gün minnətdarlıq hissi ilə xatırlayırlar. Ulu öndər bu bölgəyə yüksək qiymət verərək demişdir: ***"Mən arzu edirəm ki, siz gələcəkdə öz işlərinizi daha da yaxşılaşdırasınız. Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar, sizlər varsınız. Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Rayon sakinləri ulu öndərin bu tövsiyələrini layiqincə yerinə yetirməyə çalışırlar. Rayonda bir sıra infrastruktur layihələri həyata keçirilmiş, onlarla müasir bina inşa olunmuşdur. Demək olar ki, rayonun bütün idarə, müəssisə və təşkilatları müasir binalarda fəaliyyət göstərir. Bu isə torpaq qədri bilən, yurd təəssüblü şərurlulara yüksək səviyyədə çalışmağa imkan verir.

Bu gün ümummilli liderimizin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Şərur inkişafın yeni mərhələsinə qədəm qoymuşdur.

Dahi rəhbərin anım günündə şərurlular ulu öndər Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Dekabrın 12-də Şərur şəhərinin Heydər Əliyev prospektində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilmişdir.

## *Babək rayonu*



Böyük xalq qəhrəmanının adını daşıyan Babək rayonu ümummilli lider Heydər Əliyevin yaratdığı rayonlarımızdan biridir. Babək rayonu 1978-ci il oktyabrın 23-də təşkil olunub. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin dağ və sərhəd rayonlarının daha da möhkəmləndirilməsi siyasətinin məntiqi nəticəsi kimi ortaya çıxan yeni rayonun təşkili ideyası həm də həmin dövrdə muxtar respublikada aparılan geniş quruculuq tədbirlərinin tərkib hissəsi kimi xatırlanır. Keçmiş Naxçıvan rayonunun tərkibindən ayrılaraq təşkil olunan yeni rayona xalq qəhrəmanı Babəkin adının verilməsi isə dahi şəxsiyyətin qətiyyəti, gələcək müstəqil Azərbaycan uğrunda apardığı böyük siyasətin qələbələrindən idi. Yarandığı dövrdən ötən müddət ərzində Babək rayonu böyük inkişaf yolu keçib, Heydər Əliyev ideyalarının uğurlu nəticələrinin əyani ifadəsi olan bir bölgəyə çevrilib.

Dekabrın 12-də ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın hər yerində olduğu kimi, Babək rayonunda da böyük ehtiramla yad edilib. Həmin gün rayon mərkəzində ulu öndərimizin əzəmətlə ucalan abidəsi minlərlə insanın ziyarətgahına çevrilib. Rayon sakinləri abidə önünə tər gül dəstələri qoyub, müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad ediblər. İdarə, müəssisə və təşkilatların, məktəblərin kollektivləri, ictimaiyyətin nümayəndələri, bir sözlə, minlərlə insan ulu öndərin xatirəsinə sonsuz məhəbbətlərini ifadə ediblər.

* * *

## *Ordubad rayonu*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunda dahi rəhbərin qurub-yaratdıqlarını sadalamaqla bitməz. Rayonun hərtərəfli inkişaf etdirilməsi ümummilli liderin Azərbaycana rəhbərliyinin hər iki dövründə diqqətdə saxlanılıb. Zəngin təbiətə, bərəkətli torpaqlara, tarixi-mədəni abidələrə malik olan Ordubad şəhərinin əvvəlcə qoruq, sonra rayon ərazisinin yasaqlıq elan edilməsi, müstəqillik illərində burada milli park yaradılması, yeni istehsal müəssisələrinin işə salınması dahi şəxsiyyətin bu bölgəyə





böyük qayğısının ifadəsi kimi bu gün də unudulmayıb.

Qeyd etmək lazımdır ki, bir zamanlar bu qədim yurd yerimiz də diqqətdən kənarda qalıb. Ancaq muxtar respublikanın digər bölgələri kimi, ümummilli liderimizin səyləri hesabına Ordubad da sürətli inkişaf yoluna qədəm qoyub. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Yeni tikililər qədim yurd yerinə müasir görkəm gətirib. Görülən işlərin nəticəsidir ki, bu gün Ordubad tarixiliyini saxlamaqla ən abad və müasir bir rayona çevrilib. Bütün naxçıvanlılar kimi, ordubadlılar da dərindən dərk edirlər ki, bütün bunlar muxtar respublikada Heydər Əliyev siyasətinin uğurlu davamının nəticəsidir. Buna görə də xalqımızın dahi oğlu rayon sakinləri tərəfindən həmişə minnətdarlıqla xatırlanır, ümummilli liderimizin xatirəsi əziz tutulur. Bu hisslər dünən bir daha ifadə olunub. Ulu öndərin anım günündə rayon sakinləri görkəmli dövlət xadimi Heydər Əliyevin rayon mərkəzindəki abidəsi önünə gələrək ona sevgi və ehtiramlarını bildirib, ən böyük Azərbaycanlının əziz xatirəsini bir daha yad ediblər.

Ardı 3-cü səhifədə

## Culfa rayonu



Muxtar respublikamızın bütün bölgələri kimi, Culfa rayonunun sakinləri də ümummilli liderin anım günündə Onun əziz xatirəsini böyük ehtiramla yad edirlər. Rayonun hansı səmtinə üz tutsan, orada dahi rəhbərin ideyalarının uğurla davam etdirildiyinin şahidi olarsan.

Culfa rayonu istər tarixi-mədəni, istərsə də strateji baxımdan regionun mühüm əhəmiyyət kəsb edən ərazilərindən biridir. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə digər rayonlar kimi, Culfa rayonunun da sosial, iqtisadi, mədəni yüksəlişinə daim qayğı ilə yanaşmışdır.

Ulu öndərimiz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının muxtar respublikamızda uğurlu davamının məntiqi nəticəsidir ki, digər rayonlarda olduğu kimi, Culfa rayonunda da kompleks quruculuq tədbirləri həyata keçirilmiş, rayonda onlarla məktəb binası, səhiyyə ocağı, mədəniyyət obyekti tikilib istifadəyə verilmişdir. Culfa şəhəri aparılan abadlıq-quruculuq tədbirləri nəticəsində gözəl bir rayon mərkəzinə çevrilmişdir. Bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, parklar, abad prospekt və küçələr, həm şəhərdaxili, həm də rayonun kəndləri arasında salınmış asfalt yollar sakinlərin rahatlığına hərtərəfli şərait yaratmışdır.

Təbii ki, görülən işlər Culfa rayonunun sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi dərin hörmət hissi ilə yad edilir. Elə bu hörmətin, böyük liderə olan ehtiramın ifadəsidir ki, rayon sakinləri ulu öndərin anım günündə bir daha dahi rəhbərin əziz xatirəsini yad etmiş, Onun Culfa Rayon İcra Hakimiyyətinin binası qarşısındakı büstünü ziyarət etmişlər.

## Kəngərli rayonu





Ulu öndər Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi Kəngərli rayonunun da inkişafına böyük töhfələr verir. Ümummilli liderin nurlu yolunun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2004-cü il martın 19-da Naxçıvan Muxtar Respublikasında Kəngərli rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanununu imzaladı.

Yeni rayonun yaradılması, yeni idarələrin fəaliyyətə başlaması mindən çox yeni iş yerinin yaranmasına, bölgə iqtisadiyyatının güclənməsinə, ailələrin məskunlaşmasına şərait yaratdı. Tarixi bir adı özündə yaşadan Kəngərli rayonu qısa bir müddət ərzində muxtar respublikanın digər rayonlarının inkişaf səviyyəsinə çatdı. Heydər Əliyev ideyalarının muxtar respublikada uğurla həyata keçirilməsi bütün bölgələrimiz kimi, Kəngərli rayonunu da gözəlliklər diyarına çevirdi. Tarix üçün çox qısa bir dövrü əhatə etsə də, ötən illər ərzində burada mühüm infrastruktur layihələri həyata keçirildi, Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verdi. Naxçıvan-Sədərək magistral yolunun üzərində yerləşən rayon mərkəzində bir-birindən gözəl inzibati binalar, rahat yollar, mədəniyyət və istirahət parkı, mədəniyyət evi və digər ünvanlar bu əraziyə möhtəşəm bir gözəllik bəxş edib.

Dünən xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi Kəngərli rayonunda da hörmət və ehtiramla anılıb.

Görkəmli dövlət xadimi Heydər Əliyevin anım günü ilə əlaqədar olaraq keçirilən mərasimdə rayon sakinləri ulu öndərin əziz xatirəsini yad etməklə dahi şəxsiyyətə və Onun nurlu yoluna olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər.

Həmin gün xalqımızın böyük oğlunun rayon mərkəzində əzəmətlə ucaldılmış abidəsi minlərlə insanın axın etdiyi məkana çevrilib.

## Şahbuz rayonu



Müstəqil ölkəmizin hər yerində olduğu kimi, Şahbuz rayonunda da ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi siyasətinin bəhrələri görünməkdədir. Rayon iqtisadiyyatının inkişaf etdirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində görülmüş işlər müstəqillik illərində özünün yeni mərhələsinə qədəm qoyub. Şahbuz rayonunda da ulu öndərin xalqımız qarşısındakı misilsiz xidmətləri, ölkəmizin, muxtar respublikamızın çətin dövrlərindəki xilaskarlıq missiyası həmişə minnətdarlıqla xatırlanır.

Dekabrın 12-də xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi Şahbuz rayonunda da dərin ehtiramla anılıb. Anım günü münasibətilə keçirilən tədbirdə rayon sakinləri ulu öndərə öz dərin ehtiramlarını bir daha bildirmək üçün görkəmli dövlət xadiminin Şahbuz Rayon İcra Hakimiyyəti binasının önündə ucaldılmış büstünü ziyarət ediblər. Şahbuzlular dahi rəhbərin xatirəsini dərin ehtiramla yad edərək bir daha ulu öndərin Vətəninə xidmətlərini, xalqına sədaqətini və doğma torpağına sevgisini minnətdarlıqla anıblar.

## Sədərək rayonu



***Sədərək rayonu ərazisində bir çox yaşayış massivlərinin salınması, bu rayonun yaradılması, inkişafı və tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün rayon mərkəzi olan Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur.***

XX əsrin 90-cı illərinin əvvəllərində Sədərək Ermənistan tərəfindən hücumlara məruz qalmışdır. Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd kəndi olan, Naxçıvanın qala qapısı sayılan Sədərəkdə Azərbaycanın ərazi bütövlüyü uğrunda 1990-1993-cü illərdə ağır döyüşlər aparılmışdır. O zaman buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınması üçün misilsiz xidmətlər göstərmiş, dünyanın diqqətini burada baş verən hadisələrə yönəltmişdir. Ümummilli lider Heydər Əliyev Sədərəyi "Naxçıvanın qeyrət qalası" adlandıraraq demişdir: ***"Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub".***

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə Sədərək rayonunun erməni işğalından qorunması, bölgənin sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Sədərəklilər bu gün ümummilli liderin Sədərək rayonunun yaradılması, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla anırlar. Onlar qürur duyurlar ki, məhz bu rayonun mərkəzi Azərbaycan xalqının və ümumilikdə, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyır.

Dünən Sədərək rayonunda da rayon ictimaiyyətinin nümayəndələri ulu öndərin Heydərabad qəsəbəsinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət etmişlər.

# Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirlər keçirilib

*Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları əvvəlcə müasir Azərbaycan Respublikasının qurucusu və onun tarixi dövlətçilik ənənələrini özünə qaytarmış ümummilli lider Heydər Əliyevin nazirliyin inzibati binasındakı barelyefi önünə gül dəstələri qoyaraq dahi rəhbərin əziz xatirəsini ehtiramla yad edib, nazirlikdə fəaliyyət göstərən Heydər Əliyev Muzeyinə baxıblar.

Anım tədbiri Milli Təhlükəsizlik Nazirliyinin akt zalında davam etdirilib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik naziri, general-mayor Vəli Ələsgərov çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyev həyat amalının ali məqsədini doğma xalqına xidmətdə, gələcək nəsillərin xoşbəxtliyi naminə çalışmaqda görürdü. Xalqımızın dahi oğlu özünün nadir istedadına, parlaq dövlətçilik təfəkkürünə və mükəmməl milli dirçəliş konsepsiyasına əsaslanaraq ölkəni iqtisadi-siyasi böhranın cəngindən xilas edib, bu günün və çiçəklənən gələcəyin etibarlı özülünü qoyub.

Vurğulanıb ki, dahi öndər fəaliyyətinin hər bir məqamı ilə dövlətin və cəmiyyətin mənafeyinə xidmət edib, Azərbaycanın bütövlüyü uğrunda fədakarlıqla çalışıb. Keçmişdə minbir məhrumiyyətlər görmüş Azərbaycan xalqı ümummilli liderin sarsılmaz siyasi uzaqgörənliyi sayəsində indi xoşbəxt gələcəyə uğurla addımlamaqdadır. Azərbaycanın xüsusi xidmət orqanlarının inkişafında əvəzsiz rolu olan ulu öndər Heydər Əliyevin şanlı məktəbinin ənənələrini qürurla yaşadan Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti ümummilli liderin qarşıya qoyduğu dövlətçiliyin və milli maraqların etibarlı qorunması vəzifəsini uğurla həyata keçirir.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

* * *



*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında da ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, hələ sağlığında xalqımızın qəlbində əbədiyaşarlıq hüququ qazanmış görkəmli dövlət xadimi Heydər Əliyev uzaqgörənliyi, müdrikliyi, qətiyyəti və əzmkarlığı ilə bütün varlığı qədər sevdiyi Azərbaycanı çox çətin sınaqlardan xilas edərək inkişaf yoluna çıxarıb. Dövlət müstəqilliyimizin qorunması, ölkəmizin inkişafı, xalqımızın yaxşı yaşaması naminə həyata keçirdiyi cahanşümul tədbirlər Onu ümummilli lider səviyyəsinə yüksəldib. Bu isə Azərbaycan tarixində heç bir dövlət başçısına nəsib olmayan bir ucalıqdır.

Qeyd olunub ki, bütün mənalı həyatını öz xalqına bəxş etmiş dahi şəxsiyyət Heydər Əliyevin zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ulu öndərimizin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq, bu siyasət xalqımıza daha xoş və firavan günlər gətirəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası sədrinin müavini Xatirə İbrahimli, şuranın əməkdaşlarından Yəmən Rzayeva, Səbuhi Hüseynov, Ceyhun Məmmədov, Gözəl Qənbərova, Mahir Şıxəliyev və başqaları çıxış ediblər.



***Ulu öndər Heydər Əliyevin böyük dühası, siyasi iradəsi, dövlətçilik qüdrəti sayəsində Azərbaycan xalqı XX əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyini yenidən qazana bildi və bu dövləti qoruyub möhkəmləndirmək, daha da inkişaf etdirmək imkanları əldə etdi.***

Bu fikirləri dekabrın 11-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsində ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirdə çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev səsləndirib.

İsmayıl Hacıyev müstəqil Azərbaycanın müasir tarixinin böyük bir epoxasının məhz ümummilli liderin adı ilə bağlı olduğunu bildirib, Onun xalqımız və dövlətçiliyimiz qarşısındakı əvəzsiz xidmətlərindən söz açıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə məruzə ilə çıxış edib. Bildirib ki, ulu öndər bütün siyasi fəaliyyətini Azərbaycanın yüksəlişinə həsr edib. Naxçıvanın da sürətli inkişafı ulu öndərimizin adı ilə bağlıdır. Ümummilli liderimiz muxtar respublikada elmin inkişaf etdirilməsinə də xüsusi qayğı ilə yanaşıb. 1972-ci ildə Naxçıvan Elm Mərkəzi yaradıldı. Ümummilli lider hər hansı elm və ya təhsil sahəsinin yaranması ilə əlaqəli sərəncam və digər qərarlarla kifayətlənmir, onun yerinə yetirilməsi ilə bağlı məsələlərə, xüsusən maddi-texniki bazaya böyük önəm verirdi. 1974-cü il yanvarın 8-də verilən qərarla Naxçıvan Elm Mərkəzinin nəzdində Botanika bağının yaradılması, sonrakı dövrlərdə Ordubadda "Xəzər" xüsusi konstruktor bürosunun, Şamaxı Astrofizika Rəsədxanasının Batabat Bölməsinin, "Araz" Elm-İstehsalat Birliyinin və digər elmi-tədqiqat sahələrinin yaranması bugünkü AMEA Naxçıvan Bölməsinə gedən yolun alt qatı idi.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurdu.

**Xəbərlər şöbəsi**

# Ümummilli lider Heydər Əliyev və Naxçıvan

*Ulu öndərimiz Heydər Əliyev fitri istedadına, dərin zəkasına, xarakterinin bütövlüyünə, iradə qüvvəsinin sarsılmazlığına, doğma torpağına, xalqına, milli-mənəvi dəyərlərimizə məhəbbətinə söykənərək xalqımızın ən yuksək mənəvi-intellektual keyfiyyətlərinin, siyasi potensialının daşıyıcısına çevrilmiş, bir qərinədən artıq müddətdə çox böyük uğurla ölkəmizə rəhbərlik etmişdir. Şübhəsiz ki, bu, adi bir insan, sadəcə, bir rəhbər ömrü deyil – bu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin öz xalqının işıqlı və xoşbəxt gələcəyinə həsr etdiyi möhtəşəm bir həyat salnaməsidir.*

Bu gün ümummilli liderimizin siyasi fəaliyyət dövrünün səhifələrini bir daha vərəqləməklə şahid oluruq ki, ulu öndərin hakimiyyətinin birinci dövrü – XX əsrin 70-80-ci illəri Azərbaycanımızın çiçəkləndiyi, inkişaf və tərəqqi yolunda inamla irəlilədiyi şərəfli bir dövr olmuşdur. SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olan xalqımızın böyük oğlu Heydər Əliyevin 1987-ci ilin noyabr ayında rəhbər vəzifədən uzaqlaşdırılmasından sonra Azərbaycanın ağrı-acılarla dolu dövrü başladı.

1990-cı il iyulun 22-də muxtar respublikamıza qayıdan ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki "Azadlıq" meydanında 100 mindən çox naxçıvanlı ilə görüşü bu görkəmli şəxsiyyətin vətəninin məşəqqətli, böhranlı və taleyüklü günlərində Vətənlə, xalqla bir yerdə olmaq iradəsinin ifadəsi idi.

1990-cı ilin sentyabr seçkilərində öz böyük oğlunu Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçməklə xalq illərdən bəri tapdalanan mənafeyini və taleyini yenidən dahi rəhbər Heydər Əliyevə həvalə etdi. Həmin il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk sessiyasının qəbul etdiyi "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", noyabrın 21-də qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında"kı tarixi qərarlar dərin zəkadan doğan siyasi uzaqgörənliyin aydın və bariz sübutu idi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların təkidi, xahişi və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin qəti tələbi ilə muxtar respublika Ali Məclisinin Sədri seçilən ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin yeni mərhələsi başlandı. Sessiyanın keçirildiyi ərəfədə istər Azərbaycanda, istərsə də Naxçıvanda yaranmış gərgin vəziyyətdə xalqı yalnız Heydər Əliyev birləşdirə, muxtar respublikanı düşmüş olduğu böhrandan yalnız o çıxara bilərdi. Onun Ali Məclis Sədri vəzifəsində çalışdığı illər bu həqiqətin bariz ifadəsi oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu illəri böyük siyasi təcrübəsi və kamil tarixçi nöqteyi-nəzəri ilə belə qiymətləndirir: ***"Aydın məsələdir ki, ulu öndərimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlər, hazırladığı siyasi sənədlər təkcə Naxçıvanın yox, eyni zamanda doğma Azərbaycanımızın da xilasına xidmət edirdi. Üçrəngli dövlət bayrağının, digər milli dövlətçilik atributlarının qəbul edilməsi, milli ordu quruculuğuna başlanılması, aqrar islahatların həyata keçirilməsi – böyük ömrün Naxçıvanda keçən 3 ili ərzində görülən bütün bu tədbirlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəlmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi".***

Muxtar respublikanın etibarlı müdafiəsini təşkil etmək üçün 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradıldı, Naxçıvan ərazisindəki sovet hərbi hissələrinin arsenalının bütünlüklə Müdafiə Komitəsinə təhvil verilməsi üçün təcili tədbirlərin görülməsinə başlanıldı. 1991-ci il dekabrın 16-da Naxçıvan parlamentinin qəbul etdiyi "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərarla 1989-cu il dekabr ayının son günlərində baş vermiş "Sərhəd hərəkatı" tariximizin daş yaddaşına bayram günü kimi həkk edildi.

1992-ci il Azərbaycanın müstəqilliyini təhdid edən hadisələrlə yadda qaldı. Düşmən Xocalı soyqırımını törətdi, Şuşa və Laçın işğal edildi. May ayının lap əvvəllərindən erməni silahlı birləşmələri Naxçıvana qarşı irimiqyaslı hərbi əməliyyatlara başladılar. Belə bir vəziyyətdə ölkədəki siyasi iqtidar bütün qüvvəsini düşmənlə mübarizəyə sərf etmək əvəzinə Bakıda siyasi qruplaşmaların hakimiyyəti ələ keçirmək uğrunda şiddətli mübarizəsinə qoşulmuşdu. Paytaxtdan fərqli olaraq, Naxçıvana xalqla rəhbərliyin vəhdəti düşmənə rəşadətlə sinə gərərək torpaqları qoruyub saxlamağa kömək etdi. Bu dövrdə ümummilli liderimiz Heydər Əliyev uğurlu diplomatik gedişləri və Türkiyə Cümhuriyyətinin rəhbərliyi ilə yaratdığı düşünülmüş əlaqələrlə dünyanın 57 dövlətinin Ermənistanın hərbi təcavüzünü pisləməsinə, Naxçıvanın isə düşmən işğalından xilasına nail oldu.

Bütövlükdə, 1992-ci il muxtar respublika üçün çox mürəkkəb və məsuliyyətli il idi. Bu dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atdı. Ulu öndərimizin qonşu Türkiyə və İrana səfərləri zamanı imzalanan iqtisadi-mədəni əməkdaşlıq barədə protokollar, Naxçıvanla Türkiyəni birləşdirən "Ümid körpüsü"nün açılması, iki qardaş ölkə arasında əlaqələrin uzun illərdən sonra bərpa edilməsi sonrakı mərhələdə Naxçıvanın yalnız iqtisadi həyatında deyil, həmçinin siyasi həyatında da müstəsna rol oynadı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyası demokratik proseslər baxımından xüsusi maraq doğurur. Sessiyada "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edildi. Novator dövlət xadimi olan Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində atılmış bu addım Azərbaycanda yeni dövrün tələblərinə uyğun, sonradan ümummilli liderin Azərbaycan Prezidenti olduğu illərdə uğurla bütün ölkədə aparılan və başa çatdırılan aqrar-iqtisadi islahatların başlanğıc mərhələsi olmaqla o zaman muxtar respublika iqtisadiyyatının aqrar sahəsinin tam məhvolma təhlükəsini aradan qaldırdı.

Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi müstəqilliyimizin qorunub saxlanılmasına yönəlmiş fəaliyyəti, dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliyi respublikanın o vaxtkı naşı rəhbərləri tərəfindən siyasi qısqanclıqla qarşılanırdı. O zamankı oyuncaq siyasətçilərin məkrli niyyətləri o dərəcəyə çatmışdı ki, onların bəziləri Naxçıvanın mühüm tarixi-coğrafi və siyasi amillərlə bağlı olan muxtariyyətini ləğv etmək təklifini irəli sürürdülər.

Bu dövrdə ölkədəki siyasi hərc-mərclik və idarəolunmazlıq yeni siyasi qüvvənin – Yeni Azərbaycan Partiyasının yaranması prosesini sürətləndirdi. 1992-ci il oktyabr ayında bir qrup ziyalının ulu öndərimizə müraciətindən və ümummilli liderimizin müraciətə müsbət cavabından sonra noyabrın 21-də Azərbaycanın nüfuzlu ziyalılarının və xalqın bütün zümrələrinin təmsil olunduğu 550 nəfər nümayəndənin iştirakı ilə Naxçıvan şəhərində partiyanın təsis konfransı keçirildi və ulu öndərimiz yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçildi.

Muxtar respublika 1993-cü ilə nisbi ictimai-siyasi sabitlik şəraitində qədəm qoydu. İlin birinci yarısında muxtar respublika xarici, xüsusilə qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələrinin inkişafının yeni mərhələsinə qədəm qoymuş, fevral-mart aylarında həmin dövlətlərin Naxçıvanda konsulluqları açılmışdı. Bakıdakı bir sıra xarici ölkə səfirliklərinin nümayəndələri Naxçıvana gələrək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, görkəmli dövlət xadimi Heydər Əliyevlə müvafiq danışıqlar aparmışdılar.

Tarixi zərurət – birbaşa xalqın tələbi, respublikada yaranmış böhranlı şərait, ölkənin o zamankı rəhbərlərinin siyasi səbatsızlığı və səriştəsizliyi üzündən yaranmış hakimiyyətsizlik, torpaqlarımızın böyük bir hissəsinin işğal olunması, ölkəmizin müstəqilliyi üçün yaranmış real təhlükə 1993-cü ilin iyununda görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən Azərbaycana rəhbərliyə qayıtmasını zəruri etdi. Məhz onun fenomenal şəxsiyyəti, müdrik siyasəti respublikadakı hərc-mərcliyi aradan qaldırdı, vətəndaş müharibəsinin, Azərbaycanın əyalətlərə parçalanmasının qarşısını aldı, cəbhədə qan tökülməsinə son qoydu. 1993-cü il oktyabrın 3-də və 1998-ci il oktyabrın 11-də ölkə Prezidenti seçilən qüdrətli siyasətçi Heydər Əliyev öz siyasi qüvvə və bacarığını Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, ölkəmizin beynəlxalq aləmin sivilizasiyalı, çağdaş və inkişaf etmiş dövlətləri sırasına çıxmasına, respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının çiçəklənməsinə sərf etdi.

Xalqımız ötən 2003, 2008 və 2013-cü illərin prezident seçkilərində ulu öndərimizin ən layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevi dövlət başçısı seçməklə "Heydər Əliyev-xalq, xalq-Heydər Əliyev" vəhdətini bir daha təsdiqləmiş oldu. Hazırda cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin hər bir ayı və günü ümummilli liderimiz Heydər Əliyevin şah əsəri, bugünkü və gələcək nəsillərə tarixi əmanəti olan müstəqil Azərbaycanın inkişafı naminə konseptual siyasətinə, milli dövlətçilik ideologiyası olan Azərbaycançılıq məfkurəsinə yeni-yeni uğurlu çalarlar gətirməkdədir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının son 19 illik intibah dövründə ildən-ilə daha da müasirləşməsi, ictimai-siyasi, konstitusion-hüquqi və sosial-iqtisadi cəhətdən yalnız ölkəmizin deyil, regionumuzun ən sürətlə inkişaf edən ərazilərindən birinə çevrilməsi və bütövlükdə, dünyanın analoji muxtariyyət qurumları sırasında siyasi-hüquqi cəhətdən model kimi qiymətləndirilməsi muxtar dövlətimizdə dahi rəhbər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyasının uğurla davam etdirilməsinin nəticəsidir. 2014-cü il noyabrın 17-də Naxçıvanda Dövlət Bayrağı Meydanı və Muzeyinin açılışı, həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı Sərəncamla 17 noyabrın Naxçıvan Muxtar Respublikasında Dövlət Bayrağı Günü elan edilməsi ulu öndərin ruhuna böyük ehtiramın əlaməti, onun nurlu əməllərinin yaşadılmasının daha bir sübutudur.

*Bütün bunlar sübut edir ki, ümummilli liderin şah əsəri və öz xalqına ən böyük əmanəti olan müstəqil Azərbaycan dövləti yaşadıqca ulu öndər Heydər Əliyev də əbədi var olacaqdır. Ulu öndərimiz deyirdi:* ***"Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"***

**Elman CƏFƏRLİ**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

***Dünən Naxçıvan Müəllimlər İnstitutunda "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib. Məşğələni ali təhsil müəssisəsinin rektoru, professor Oruc Həsənli açıb.***

## "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələləri keçirilib



AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Heydər Əliyev və Naxçıvan" mövzusunda çıxış edərək bildirib ki, Azərbaycanın qədim diyarı Naxçıvan Muxtar Respublikasının 50 illik bir dövrü xalqımızın ümummilli lideri Heydər Əliyevin adı və zəngin fəaliyyəti ilə sıx bağlıdır. 1969-cu ilə qədər Naxçıvanın iqtisadiyyatı və mədəniyyəti çox ləng inkişaf edirdi, bir çox göstəricilərə görə muxtar respublika ölkənin ayrı-ayrı bölgələrindən çox geridə idi. Həmin dövrdə mərkəzi hakimiyyət də təbii sərvətlərlə zəngin olan muxtar respublikada məhsuldar qüvvələrin inkişafına bilərəkdən etinasızlıq göstərirdi. Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycandan təcrid vəziyyətinə salınmış Naxçıvanı iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək, bu yolla naxçıvanlıları ata-baba torpaqlarından didərgin salmaq siyasəti yeridilirdi. Lakin 1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra, digər bölgələrimiz kimi, Naxçıvan da inkişaf yoluna qədəm qoydu.

Vurğulanıb ki, ötən əsrin sonlarında dahi şəxsiyyətin Naxçıvana qayıdışı, 1990-1993-cü illərdə burada yaşayıb fəaliyyət göstərməsi bu qədim türk yurdunu bəlalardan xilas etdi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra ölkəmiz, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız Heydər Əliyev siyasətindən bəhrələnərək yeni inkişaf yoluna qədəm qoydu.

* * *



*Naxçıvan Tibb Kollecində keçirilən "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi də "Heydər Əliyev və Naxçıvan" mövzusuna həsr olunmuşdu. Məşğələni kollecin direktoru İlhamə Mustafayeva açdı.*

AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Heydər Əliyev və Naxçıvan" mövzusunda çıxış edərək bildirdi ki, bu gün ölkəmizin hərtərəfli inkişafına ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətləri nəticəsində nail olunub.

Qeyd edildi ki, ümummilli liderimiz siyasi fəaliyyətinin həm birinci, həm də ikinci dövründə Azərbaycanın, o cümlədən Naxçıvanın inkişafı üçün fundamental tədbirlər həyata keçirib. Naxçıvan hazırda ən böyük inkişaf dövrünü yaşayır ki, muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi və kəndi daim yeniləşir, gözəlləşir, abadlaşır. Bütün bunlar ulu öndər Heydər Əliyev yolu ilə müzəffər yürüşünü davam etdirən müstəqil Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan ulu Naxçıvanın yeni yüksəlişinin, möhtəşəm inkişafının nurlu səhifələridir.

## Dahilik zirvəsi

Naxçıvan Muxtar Respublikası Estetik Tərbiyə Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş"Dahilik zirvəsi"adlı anım tədbiri keçirilib. Tədbirdə mərkəzin direktoru Elxan Məmmədov çıxış edərək bildirib ki, bu gün Azərbaycan dövlətçiliyini, xalqımızın müstəqilliyini əbədi yaşatmaq üçün Heydər Əliyev irsi, onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi xəzinədir. Dahi şəxsiyyət Heydər Əliyev həyatının mənasını yalnız xalqına xidmətdə görüb, ömrünü onun xoş, firavan gələcəyinə həsr edib.

Sonra mərkəzin əməkdaşlarından Nərminə Heydərova, Gülsüm Hüseynova və başqaları çıxış edərək bildiriblər ki, bu gün bütün sahələrdə əldə edilən uğurlar onu deməyə əsas verir ki, ümummilli liderimiz müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizin inkişafının möhkəm təməllər üzərində qurulmasına nail olub. Azərbaycan xaosdan sabitliyə, inkişafa qədəm qoyub və bu siyasəti uğurla davam etdirən Prezident cənab İlham Əliyev ölkəmizi bölgənin lider dövlətinə çevirib.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1043